"Azərinşaatservis" MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
**Tel.:** (+994 12) 447 70 03 (04) **Faks:** (+994 12) 565 04 54
www.azerinsaat.com

AZƏRİNŞAAT

**PRES RELİZ**

**Dünya Bankının nümayəndəsi Ələt-Masallı avtomobil yolunun 1A (km 0 – km 9) hissəsində görülən işləri yüksək qiymətləndirdi.**

*"Azərinşaatservis" MMC*
*Bakı, Azərbaycan*
*2010/07/23*

23 iyulda Dünya Bankının Azərbaycandakı nümayəndəsi "Ələt-Masallı avtomobil yolunun 1A (km 0 – km 9) hissəsinin tikintisi" layihəsi çərçivəsində tikinti işlərinin aparıldığı sahəyə səfər etdi. Tikinti işlərinin aparıldığı ərazilərdə, yeməkxanada, sahə ofisində və ilkin tibbi yardım istiqamətində görülən bütün işlərlə yaxından tanış olan Dünya Bankının nüməyəndəsi "Azərinşaatservis" MMC-nin sahədəki nümayəndələri və layihə meneceri ilə görüşdü. O, səfərin nəticələri ilə bağlı öz fikirlərini qeyd edərkən sahədə ətraf mühitin qorunması və təhlükəsizlik tədbirlərinin təşkili istiqamətində "Azərinşaatservis" MMC-nin gördüyü işlərin yükəsk səviyyədə olduğunu və bundan olduqca razı qaldığını da vurğuladı.

"Ələt-Masallı avtomobil yolunun 1A (km 0 – km 9) hissəsinin tikintisi" layihəsi regionun ən böyük yol və dəmir yolu tikintisi şirkətlərindən biri olan "Azərinşaatservis" MMC tərəfindən həyata keçirilir. Hazırda Şirkət layihə üzrə tikinti işlərini sürətlə davam etdirir.

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin "Azəryolservis" ASC-sinin sifarişi və Dünya Bankının maliyyələşdirməsi ilə həyata keçirilən "Ələt-Masallı avtomobil yolunun 1A (km 0 – km 9) hissəsinin tikintisi" layihəsi üzrə işlərin 2010-cu ilin noyabr ayınadək başa çatdırılması nəzərdə tutulub.















*2003-cü ildə qurulan "Azərinşaatservis" MMC Azərbaycanda və Qafqaz regionunda yüksək keyfiyyətli xidmətlər göstərməklə yol və dəmiryolu tikintisi sahəsində liderlik iddiasında olan bir şirkətdir. Şirkət əsas fəaliyyət dairəsi olan avtomobil və dəmiryolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat üzrə Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 208 20 87, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**